# Bakının istisinə hərarət qatacaq festival başladı

## Tamaşaçıları Sofiya Rotarunun yubileyi, Alla Puqaçovanın musiqi gecəsi gözləyir



**Artıq ikinci dəfədir paytaxtımızda "Jara" Beynəlxalq Musiqi Festivalı keçirilir. Bu festival Azərbaycanda və ümumən MDB məkanında səbirsizliklə gözlənilən hadisədir. Festivalda iştirak etmək üçün Bakıya artistlər, musiqiçilər, rəqqaslar və onları müşayiət edən heyətlərlə birlikdə, 800-dən çox qonaq gəlib. Bu il festivalı 32 min tamaşaçı canlı izləyəcək.**

İyulun 27-də festivalın möhtəşəm açılışı oldu. "Jara" Beynəlxalq Musiqi Festivalının təşkilatçısı, müğənni və bəstəkar Emin ötən il festivalın möhtəşəm keçdiyini və bu il daha möhtəşəm keçəcəyinə ümid etdiyini bildirib: "Bu festivala il boyu hazırlaşdıq, müğənnilərlə danışıqlar apardıq, texniki cəhətdən hazırlıq gördük. Əgər ötən il 400-ə yaxın qonağımız var idisə, bu il onların sayı 850-ə çatır. Bizi Sofiya Rotarunun yubileyi, Alla Puqaçovanın musiqi gecəsi gözləyir. Qeyd edim ki, festival Qriqori Lepsin yubileyi ilə yekunlaşacaq".

Festivalın təşkilatçılarından biri Sergey Kojevnikov isə qeyd edib ki, budəfəki "Jara" daha möhtəşəm olacaq. Dörd günlük festivalın üç günü yaradıcı gecədir. Festivalın ilk günündə ən müasir və sevilən hitlər səslənəcək: "İndiyədək cəmi bir dəfə keçirilməsinə baxmayaraq, festival musiqisevərlərin böyük rəğbətini qazanıb və mötəbər tədbirə çevrilib. Bu festival musiqi və mədəniyyət bayramı olmaqla yanaşı, həm də digər mühüm bir məqamı nümayiş etdirir. "Jara" Azərbaycanla Rusiya arasında son illər bütün sahələrdə dinamik inkişaf edən, o cümlədən humanitar sahədə genişlənən münasibətlərin göstəricisi kimi xarakterizə oluna bilər. AZAL-ın xüsusi reysi ilə ölkəmizə gələn Rusiyanın məşhur ulduzları Azərbaycana sevgilərini bu torpağa qədəm qoyduqları ilk andan hiss etdiriblər".

Azərbaycanda ilk dəfə olduğunu bildirən müğənni Montik isə yerli mətbuata müsahibəsində həmkarlarından ölkəmiz və şəhərimiz barədə çox eşitdiyini vurğulayıb: "Biz festivala ciddi hazırlaşmışıq. Ritmik, sümüyə düşən musiqilərlə gəlmişik. Bizim musiqimiz insanlara pozitivlik aşılayır. İnanıram ki, "Jara" hər kəsə xoş anlar bəxş edəcək. Biz Bakının isti ab-havasına əlavə hərarət qatmağa çalışacağıq".

Müğənni Qlükoza festivala ilk dəfə qatılsa da, əvvəllər Azərbaycanda konsertlər verib. O, yüksək əhval-ruhiyyədə olduğunu qeyd edərək deyib: "Yenidən Bakıya gəlməyimə şadam. Festivalın bütün günlərində çıxışlarım var. Nə gizlədim, həyəcanlıyam. Lakin ümidvaram ki, Bakı tamaşaçısının dəstəyi bu həyəcanı unutduracaq".

Müğənni Anita Tsoy isə Bakını sevdiyini bildirib: "Ailəm də buradadır, artıq Xəzərin sahilində dincəlir. Festivala yaxşı hazırlaşmışam. Məni balet qrupum müşayiət edəcək. Bakılılara xoş əhval-ruhiyyə bəxş etməyə çalışacağam. Ötən ilki qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm".



İyulun 27-də keçirilən açılış mərasimində, festivalın aparıcısı Yana Çurikova da yüksək təşkilatçılıqdan, festivalın əhəmiyyətindən söz açıb: "Sizi də, bizi də təbrik edirəm. "Jara" daha möhtəşəm olub. Ötən il hər kəs anladı ki, iki gün kifayət etmir. Bu dəfə isə dörd gün ərzində musiqiçi və müğənnilər il ərzində hazırladıqları nömrələri təqdim edəcəklər. Təşkilatçıların yanaşması, keçirilən məkan, qonaqpərvərlik yüksək səviyyədədir. Tematik günlər isə bu festivalı daha yaddaqalan edəcək. SSRİ xalq artistləri Alla Puqaçova və Sofiya Rotaru hələ SSRİ zamanı Azərbaycanda yaxşı tanınırdılar. İllər sonra da Bakıdakı konsertlərini səbirsizliklə gözləyirdik. Burada bizi sevir və qayğımıza qalırlar".

Müğənni Burito isə festivalın dostlarla görüşmək üçün çox gözəl fürsət olduğunu bildirib: "İkincisi, artıq bizə doğma olan Bakı ilə görüşdür. Əsası isə tamaşaçılarla xoş ünsiyyətdir. Ötən il tamaşaçıların mehriban və isti münasibəti yaddaqalan oldu. Təşkilatçılıq yüksək səviyyədədir".

Beləliklə, iyulun 27-dən başlayaraq iyulun 30-dək Bakının "Sea Breeze" istirahət zonasında təşkil olunan festivalda dünya şöhrətli müğənnilər Alla Puqaçova, Sofiya Rotaru, Layma Vaykule, Filipp Kirkorov, Qriqoriy Leps, Emin, Valeriya, Valeri Meladze, Kristina Orbakayte, Nikolay Baskov, Ani Lorak, Dima Bilan, Lev Leşenko, Vladimir Vinokur, həmçinin sevilən sənətçilər Sergey Lazarev, Vera Brejneva, Aleksey Vorobyov, Potap və Nastya, Svetlana Loboda, Stas Mixaylov və başqaları tamaşaçılara unudulmaz anlar bəxş edəcəklər. Bizə isə bu möhtəşəm konsertdən zövq almaq qalır.

**Xəyalə Rəis**

